**Cəfərli, B.** Memarlıq yaddaşımızda ulu sima: Əcəmi Naxçıvani fenomeni / Brilyant Cəfərli // 525-ci qəzet.-2025.- 26 dekabr.- № 238.- S.23.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi təsadüfi qərar deyil, müasir Azərbaycanın inkişaf strategiyasında mühüm mərhələdir. Bu Sərəncam bir tərəfdən müasir şəhər mühitinin formalaşdırılmasına çağırışdırsa, digər tərəfdən xalqın memarlıq yaddaşına, tarixi memarlıq irsinə və estetik düşüncəyə verilən yüksək dəyərin rəmzidir. Dövlət başçısının bu addımı memarlığı iqtisadi və texniki sahə olmaqdan çıxararaq milli kimliyin, mədəni davamlılığın əsas sütunlarından biri kimi ön plana çəkir. Prezidentin imzaladığı Sərəncam açıq şəkildə göstərir ki, Azərbaycan üçün şəhərsalma yalnız yeni binaların inşası deyil, tarixi-mədəni kontekstin qorunması, memarlıq yaddaşının gələcək nəsillərə ötürülməsi deməkdir. Məhz bu baxımdan "Şəhərsalma və Memarlıq İli" ideyası bizi istər-istəməz Azərbaycan memarlıq düşüncəsinin zirvəsi olan Əcəmi Naxçıvani fenomeninə qaytarır.

Tarix göstərir ki, güclü dövlətlər memarlıq yaddaşına söykənir. Prezident İlham Əliyevin Sərəncamı da bu siyasi-fəlsəfi həqiqətin müasir ifadəsidir. Bu sənəd şəhərlərin yalnız funksional deyil, mənəvi-estetik mühit kimi formalaşdırılmasını da qarşıya məqsəd kimi qoyur. Bu isə əsrlər əvvəl Əcəmi Naxçıvaninin irəli sürdüyü memarlıq dünyagörüşü ilə səsləşir. Əcəmi Naxçıvani memarlığı zamanın sifarişi deyil, düşüncənin məhsulu kimi dəyərləndirib.

Onun yaratdığı Naxçıvan memarlıq məktəbi göstərdi ki, tikili yalnız sığınacaq deyil, ideyadır, rəmzdir, dövlətdir. Bu gün dövlət səviyyəsində şəhərsalma məsələsinin ön plana çəkilməsi Əcəmi irsinin nə qədər aktual və yaşar olduğunu bir daha təsdiqləyir.

Əcəmi Naxçıvani təkcə böyük memar deyil, o, bütöv bir memarlıq məktəbinin banisidir. Onun yaratdığı Naxçıvan memarlıq məktəbi Orta əsr Şərq memarlığında yeni estetik və konstruktiv düşüncənin başlanğıcı olub. Əcəmi daş və kərpici sadəcə tikinti materialı kimi deyil, fəlsəfi məna daşıyıcısı kimi dəyərləndirib. Onun memarlığında riyazi dəqiqlik, ornament ritmi və simvolik məna vahid bədii sistemə çevrilib. Bu baxımdan Əcəmi yaradıcılığı bugünkü şəhərsalma anlayışı üçün də mühüm mesaj verir. Bu mesaj ondan ibarətdir ki, memarlıq yalnız texniki proses deyil, mədəni məsuliyyətdir.

Prezident İlham Əliyevin "Şəhərsalma və Memarlıq İli" elan etməsi memarları, şəhərsalma mütəxəssislərini və cəmiyyəti ciddi düşünməyə vadar edir: biz hansı şəhərləri qururuq və bu şəhərlər hansı yaddaşı daşıyır? Əcəmi Naxçıvani bu suala əsrlər öncə cavab verib. O göstərib ki, memarlıq zamanla dialoqdur və bu dialoq milli kimlik üzərində qurulmalıdır. Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsrdə bünövrəsi milli kimlik olan möhtəşəm sənət əsərləri inşa edib.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Əcəmi Naxçıvani irsinə yenidən baxmaq yalnız keçmişə ehtiram deyil, gələcəyə görə məsuliyyət deməkdir. Müasir şəhərlərimizi planlaşdırarkən Əcəminin düşüncə sistemindən - miqyas hissindən,

ritm anlayışından, məkana fəlsəfi yanaşmasından yararlanmalıyıq. Əgər şəhərlərimizdə ruh yoxdursa, o şəhərlər yaşaya bilməz. Əcəmi Naxçıvani isə əsrlər öncə sübut edib ki, memarlıq ruhla qurulanda zaman ona toxuna bilmir. Dövlətin verdiyi bu siyasi impuls mənəvi dəyərlərimizin yenidən aktuallaşdırılmasına xidmət edir.

Prezident İlham Əliyevin imzaladığı Sərəncam memarlığı sadəcə sahə deyil, milli prioritet kimi təqdim edir. Bu prioritetin ideya kökləri isə Əcəmi Naxçıvani kimi dahilərin yaradıcılığında yaşayır. Dövlət qərarı ilə memarlıq yaddaşı arasında qurulan bu ideya xətti göstərir ki, Azərbaycan gələcəyini qurarkən keçmişini unutmur. Çünki bu torpaqlarda daşlar da Əcəminin dili ilə danışır. Azərbaycanda şəhərlər də dövlət qədər məsuliyyət daşıyır. Və bu məsuliyyətin adı Əcəmi Naxçıvani irsidir.